# *Azərbaycan Respublikasının bir sıra qanunvericilik aktlarına müstəqil auditlə bağlı edilmiş dəyişikliklərə dair şərhlər*


Azərbaycan Respublikasının Auditorlar Palatası
Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi

ELNUR İBRAHİMOV

# Son zamanlar qanunvericilikdə auditlə bağlı bir sıra dəyişiklər edilmişdir.

- “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (Bakı şəhəri, 6 iyul 2023-cü il № 947-VIQD)
- “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (Bakı şəhəri, 6 iyul 2023-cü il№955-VIQD)
- “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (Bakı şəhəri, 6 iyul 2023-cü il № 948-VIQD)
- “Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (Bakı şəhəri, 6 iyul 2023-cü il№ 944-VIQD)
- “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (Bakı şəhəri, 6 iyul 2023-cü il № 945-VIQD)
- Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi QAYDASI (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 avqust tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmişdir)
- “Nəzarət olunan xarici müəssisə haqqında arayışın rezident fiziki və hüquqi şəxslər tərəfindən vergi orqanına təqdim edilmə forması və qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 19 aprel tarixli 8 nömrəli Qərarında dəyişikliklər (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 28 iyul tarixli 19 nömrəli Qərarı ilə təsdiq edilmişdir)
- “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (Bakı şəhəri, 14 iyul 2023-cü il № 937-VIQD)
- Problemli aktivlərin (əmlakların) və onlar üzrə tələb hüquqlarının satılması, idarəetməyə verilməsi və iştirak payı kimi qoyulması üzrə Müsabiqə Komissiyasının fəaliyyət QAYDASI (Azərbaycan Respublikası Nazirlər Kabinetinin2023-cü il 4 avqust tarixli 267 nömrəli Qərarı ilə təsdiq edilmişdir)
- “Bank olmayan kredit təşkilatları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (Bakı şəhəri, 6 iyul 2023-cü il № 940-VIQD)
- “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (Bakı şəhəri, 6 iyul 2023-cü il 935-VIQD)
- Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında Azərbaycan Respublikasının Qanunu (Bakı şəhəri, 14 iyul 2023-cü il № 987-VIQ)
- “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (Bakı şəhəri, 6 iyul 2023-cü il № 934-VIQD)

**“Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**

**Maddə 52. Yoxlamalar**

**Maddə 53-1. Yoxlayıcıların hüquq və vəzifələri**

**“Maddə 65-1. Mərkəzi Bankın satınalmaları**

- 52.1. Mərkəzi Bank nəzarət subyektinin maliyyə dayanıqlılığını, risk profilini qiymətləndirmək, nəzarət subyektinin fəaliyyətinin maliyyə bazarlarını tənzimləyən qanunlara və normativ xarakterli aktlara uyğunluğunu yoxlamaq, tətbiq edilmiş təsir, təshih tədbirlərinin və sanksiyaların, icrası məcburi olan digər göstərişlərin icra vəziyyətini müəyyən etmək məqsədilə yoxlamalar keçirir.
- 52.6. Yoxlamalar Mərkəzi Bankın əməkdaşları və (və ya) Mərkəzi Bank tərəfindən təyin edilən kənar auditorlar (yoxlayıcılar) tərəfindən həyata keçirilir. Yoxlayıcıların tərkibinə qarşılıqlı fəaliyyət prinsipi əsasında Mərkəzi Bankın yoxlamalar sahəsində əməkdaşlıq haqqında saziş bağladığı xarici ölkənin nəzarət orqanının əməkdaşları və digər şəxslər (ekspertlər, mütəxəssislər) də daxil edilə bilərlər.

Bakı şəhəri, 6 iyul 2023-cü il № 934-VIQD

*Bu dəyişikliyin maliyyə sistemində kənar auditor üçün maliyyə hesabatlarının auditindən başqa yeni bir fəaliyyət sahəsi – uyğunluq auditinin aparılmasına özündə ehtiva edir. Belə ki, kənar auditor mərkəzi bankın göstərişi əsasında (mərkəzi bank tərəfindən təyin edilmiş kənar auditor) Qanunun 52.1-ci maddəsində göstərilən məsələlərin auditini özündə ehtiva edir:*

- *Nəzarət subyektinin maliyyə dayanıqlılığının risk profillərini qiymətləndirir;*
- *Onlar tərəfindən müvafiq normativ aktlara əməl edilməsi vəziyyətini yoxlayır;*
- *Tətbiq edilmiş təsir, təshih tədbirlərinin sanksiyalarını və digər göstərişlərin vəziyyətini yoxlayır;*

*Qeyd: Nəzərə alınmalıdır ki, bu əməliyyatların icrası zamanı mərkəzi bank tərəfindən auditorlarla birlikdə yoxlamalarda digər ekspertlərin, mütəxəssislərin və s. iştirakı nəzərdə tutula bilər.*

**“Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**

**Maddə 52. Yoxlamalar**

**Maddə 53-1. Yoxlayıcıların hüquq və vəzifələri**

**“Maddə 65-1. Mərkəzi Bankın satınalmaları**

- 53-1.1.2. nəzarət subyektinə aidiyyəti olan şəxslərlə bağlı lazımi məlumat və sənədləri, o cümlədən onların idarə edilməsi və cari fəaliyyətinə aid lazımi informasiyanı əldə etmək, habelə nəzarət subyektinə aidiyyəti olan şəxslərdən, o cümlədən qanuna müvafiq olaraq nəzarət subyektinə əhəmiyyətli nəzarəti həyata keçirən və ya nəzarət subyektinin əhəmiyyətli nəzarəti həyata keçirdiyi şəxslərdən, nəzarət subyektinin auditini aparan və ya aparmış auditorlardan, invesitisiya fondunun qiymətləndiricisindən və depozitarından və nəzarət subyektinin üçüncü şəxslərlə əlaqədar fəaliyyəti barədə həmin şəxslərdən yoxlamanın aparılması üçün lazım olan sənədləri, məlumatları, rəyləri, izahatları, arayışları əldə etmək;

Bakı şəhəri, 6 iyul 2023-cü il № 934-VIQD

- *Bu dəyişiklik “Auditor xidməti haqqında“ Qanunun 12-ci “Auditorların hüquqları” maddəsində nəzərdə tutulan hallardan başqa onların fəaliyyəti ilə bağlı çoxsaylı sənədlərin təqdim edilməsinin hüquqi əsasını yaradır. Belə ki, Mərkəzi Bank birbaşa (nəzarət subyektinin auditini aparan auditlə bağlı) istənilən sənədləri sənədləri tələb etmək hüququnu müəyyən edir. Bu eyni zamanda “Auditor xidməti haqqında” Qanunun 13-cü auditorların vəzifələri maddəsinin tələblərinə də ciddi təsir göstərir.*

## “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

**Maddə 52. Yoxlamalar**

**Maddə 53-1. Yoxlayıcıların hüquq və vəzifələri**

**“Maddə 65-1. Mərkəzi Bankın satınalmaları**

- 65-1.1.1. kağız və metal pul nişanlarının, o cümlədən yubiley və xatirə pul nişanlarının konsepsiyasının, dizaynının, mühafizə elementlərinin və digər texniki spesifikasiyalarının hazırlanması, istehsalı, daşınması, saxlanılması, sığortalanması, istehsal prosesinin auditinin keçirilməsi və keyfiyyət ekspertizasının aparılması ilə bağlı satınalmalar;
- 65-1.1.2. beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanılması və idarə edilməsi ilə bağlı satınalmalar;

Bakı şəhəri, 6 iyul 2023-cü il № 934-VIQD

- *Bu maddə kağız və metal pul nişanları, o cümlədən yubiley və xatirə nişanları ilə bağlı istehsal, daşınma, saxlanma, sığortalanma və s. proseslərin auditinin keçirilməsinin hüquqi əsasını yaradır.*

# Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında Azərbaycan Respublikasının Qanunu

**Maddə 8. Mühasibat uçotu və maliyyə hesabatları**

- 8.1. Ödəniş təşkilatı və elektron pul təşkilatı tərəfindən mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tərtibi, təqdim və dərc edilməsi ilə bağlı münasibətlər "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.
- 8.2. Ödəniş təşkilatı və elektron pul təşkilatı illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 12.1-ci maddəsinə uyğun olaraq müəyyən olunmuş müddətdə Mərkəzi Banka təqdim etməlidirlər. Ödəniş təşkilatı və elektron pul təşkilatı ödəniş agenti cəlb etdikdə, ödəniş agenti tərəfindən ödəniş xidmətləri üzrə aparılan əməliyyatlar ödəniş təşkilatı və elektron pul təşkilatının birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına daxil edilir.
- 8.3. Ödəniş təşkilatı və elektron pul təşkilatı illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün hər il müstəqil auditor cəlb etməlidirlər. Ödəniş təşkilatı və elektron pul təşkilatında yoxlamanı aparan kənar auditor ödəniş xidmətlərinin göstərilməsi sahəsində aşkar etdiyi qanun pozuntuları və çatışmazlıqlar haqqında Mərkəzi Banka yoxlama müddətində yazılı məlumat verir.

- 52.1. Bu Qanunun 48.9-cu maddəsinin tələbləri nəzərə alınmaqla, xarici ödəniş təşkilatının və xarici elektron pul təşkilatının yerli filialına lisenziya verilməsi üçün Mərkəzi Banka aşağıdakı sənədlər təqdim edilir:
- 52.1.4. xarici ödəniş təşkilatının və xarici elektron pul təşkilatının son maliyyə ili üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatı və auditor rəyi;

Bakı şəhəri, 14 iyul 2023-cü il № 987-VIQ

# Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında Azərbaycan Respublikasının Qanunu

*Bu dəyişiklik ödəniş təşkilatı və elektron pul təşkilatı tərəfindən mühasibat uçotunun aparılması və maliyyə hesabatları ilə bağlı müddəaları özündə əks etdirir. Eyni zamanda bu qanun **yeni məcburi audit subyektini** – ödəniş təşkilatı və elektron pul təşkilatını müəyyən edir. Belə təşkilatlarda audit aparan kənar auditor aşkar olunmuş qanun pozuntuları və çatışmazlıqlar haqqında Mərkəzi Banka **yoxlama müddətində** yazılı məlumat verməyə görə məsuliyyət daşıyır.*

# “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

“1.0.12. İnzibatçı - bankın Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin üzvləri, xarici bankın yerli filialının və nümayəndəliyinin rəhbəri, habelə bankın (xarici bankın yerli filialının) baş mühasibi (bu vəzifələri icra edən şəxs), daxili audit bölməsinin əməkdaşları, bankın filialının, şöbəsinin və nümayəndəliyinin rəhbərləri;”;

1.11.3. 10.2.7-ci maddədə “(mühasibat xidmətinin rəhbəri), daxili audit bölməsinin rəhbəri, bank filialının, şöbəsinin rəhbəri və baş mühasibi” sözləri “(bu vəzifələri icra edən şəxs), daxili audit bölməsinin rəhbəri, bank filialının, şöbəsinin rəhbəri, eləcə də xarici bankın yerli filialının rəhbəri və baş mühasibi (bu vəzifələri icra edən şəxs)” sözləri ilə əvəz edilsin;

10.3.1. bankın Müşahidə Şurasının, Audit Komitəsinin sədri və üzvləri üçün - iqtisadiyyat, idarəetmə və ya hüquq sahələrində ali təhsil və maliyyə bazarları sahəsində və ya bankın fəaliyyət strategiyasında müəyyən edilən sahələrdə azı 5 illik iş təcrübəsinin olması, yaxud ali təhsil və həmin sahələrdə azı 7 illik iş təcrübəsinin olması;

(Bakı şəhəri, 6 iyul 2023-cü il 935-VIQD)

*Bu maddə redaktə xarakteri daşıyır.*

# “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

10.3.4. bankın daxili audit bölməsinin rəhbəri üçün – iqtisadiyyat və ya hüquq sahələrində ali təhsil və maliyyə bazarları sahəsində azı 4 illik iş təcrübəsinin (azı 2 ili bankda olmaqla) olması, yaxud ali təhsil və maliyyə bazarları sahəsində azı 5 illik iş təcrübəsinin (azı 3 ili bankda olmaqla) olması;

41.2. Bank sirrini təşkil edən məlumatlar müştərinin özünə və səlahiyyətli nümayəndəsinə, habelə müştərinin yazılı razılığı ilə üçüncü şəxslərə verilir. Müştərinin yazılı razılığı ayrıca sənəd formasında tərtib edilir və müştəri tərəfindən əl imzası (notariat qaydasında və ya bankın səlahiyyətli şəxsi tərəfindən təsdiqlənməklə), gücləndirilmiş elektron imza və ya məsafədən bank hesablarının açılması üçün Mərkəzi Bank tərəfindən müəyyən edilən digər üsul ilə imzalanır. Həmin razılıqda bank sirrini təşkil edən məlumatların verilməsi nəzərdə tutulan şəxslər, verilən məlumatların dairəsi, məlumatların verilməsi müddəti (müəyyən edildiyi halda) və məlumatların verilməsi ilə bağlı müştərinin zəruri hesab etdiyi digər şərtlər aydın şəkildə göstərilməlidir. Müştərinin yazılı razılığı olmadan bank sirrini təşkil edən məlumatlar bank tərəfindən digər şəxslərə yalnız aşağıdakı hallarda verilir:

41.2.16. bankın audit yoxlaması zamanı – kənar auditorlara;

“44.3.4. banka və xarici bankın yerli filialına nəzarət funksiyasının həyata keçirilməsi üçün tələb olunduqda Mərkəzi Bankın yazılı sorğusuna əsasən auditini aparan və ya aparmış bankın və xarici bankın yerli filialının fəaliyyətinə dair istənilən sənəd və məlumatları sorğuda müəyyən edilmiş müddətdə Mərkəzi Banka təqdim edir.”;

(Bakı şəhəri, 6 iyul 2023-cü il 935-VIQD)

*Bu maddə Mərkəzi Bankın yazılı sorğusuna əsasən auditorlar tərəfindən banklarda aparmış olduğu auditlərlə bağlı istənilən sənəd və sorğuları Mərkəzi Banka təqdim etmə öhdəliyi yaradır.*

# “Bank olmayan kredit təşkilatları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

**“20.2-1. Mərkəzi Bank BOKT-də kənar auditin aparılmasına dair müvafiq sahə üzrə beynəlxalq təcrübəyə uyğun minimum tələblər müəyyən edir. Kənar auditor yoxlaması Mərkəzi Bankın tələblərinə uyğun olmadıqda, Mərkəzi Bank auditorun dəyişdirilməsini, habelə BOKT-nin özünün vəsaiti hesabına təkrar auditin aparılmasını tələb edir.”;**

**“24.6. BOKT-yə nəzarətin həyata keçirilməsi üçün tələb olunduqda BOKT, habelə BOKT-nin auditini aparan və ya aparmış auditorlar həmin BOKT-nin fəaliyyətinə dair istənilən sənəd və məlumatları Mərkəzi Bankın yazılı sorğusuna əsasən həmin sorğuda müəyyən edilmiş müddətdə ona təqdim etməlidir.”;**

**Bakı şəhəri, 6 iyul 2023-cü il № 940-VIQD**

***Bu maddə Mərkəzi Bankın yazılı sorğusuna əsasən auditorlar tərəfindən banklarda aparmış olduğu auditlərlə bağlı istənilən sənəd və sorğuları Mərkəzi Banka təqdim etmə öhdəliyi yaradır.***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 4 avqust tarixli 267 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

# Problemli aktivlərin (əmlakların) və onlar üzrə tələb hüquqlarının satılması, idarəetməyə verilməsi və iştirak payı kimi qoyulması üzrə Müsabiqə Komissiyasının fəaliyyət QAYDASI

**3. Müqavilə öhdəliklərinin yerinə yetirilməsinə nəzarət**

3.1. "Aqrarkredit" QSC aktivlərin (əmlakların) idarəetməyə verilməsi və iştirak payı kimi qoyulması ilə əlaqədar müvafiq şəxslərlə bağlanılan müqavilələrdə öhdəliklərin icrasına nəzarəti həyata keçirir və bununla əlaqədar həmin qurumlar tərəfindən "Aqrarkredit" QSC-yə 6 (altı) aydan bir müəyyən edilmiş formada müstəqil audit hesabatını təqdim edir.
3.2. "Aqrarkredit" QSC-nin tələbi ilə kənar auditor tərəfindən hesabata öhdəliklərin yerinə yetirilməsini təsdiq edən digər sənədlər də əlavə olunmalıdır.
3.3. Hesabatda qeyd olunan məlumatların doğruluğuna əmlakları idarəetməyə götürən (investisiya kimi cəlb edən) şəxs və auditor məsuliyyət daşıyır.
3.4. Əmlakları idarəetməyə götürən (investisiya kimi cəlb edən) şəxs tərəfindən müqavilə üzrə nəzərdə tutulan öhdəliklər və investisiya proqramı tam yerinə yetirildikdən sonra həmin şəxs bütün müqavilə müddətini əhatə edən və müstəqil auditor tərəfindən təsdiq olunan yekun hesabat hazırlayır və "Aqrarkredit" QSC-yə təqdim edir.

*Bu maddə redaktə xarakteri daşıyır.*

## “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

## Maddə 14. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları sahəsində icazənin alınması üçün tələb olunan sənədlər (məlumatlar)

**14.1. Bu Qanunun 13.1.1-ci maddəsində nəzərdə tutulan icazəni almaq üçün hüquqi şəxs və ya fərdi sahibkar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş sənədlərdən başqa, aşağıdakı sənədləri (skan edərək) və məlumatları elektron qaydada təqdim edir:**

**14.1.8. ərizənin verildiyi günədək kənar (müstəqil) auditor tərəfindən təsdiq edilmiş son hesabat dövrünə aid maliyyə hesabatlarını, aktivləri barədə məlumatı və ya maliyyə vəziyyəti barədə bank arayışını;**

**Bakı şəhəri, 14 iyul 2023-cü il № 937-VIQD**

***Bu maddə redaktə xarakteri daşıyır.***

**“Nəzarət olunan xarici müəssisə haqqında arayışın rezident fiziki və hüquqi şəxslər tərəfindən vergi orqanına təqdim edilmə forması və qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 19 aprel tarixli 8 nömrəli Qərarında dəyişikliklər**

3. Arayışın təqdim edilmə qaydası və həmin arayışa əlavə edilən sənədlər

3.2. Rezident hüquqi və fiziki şəxslər tərəfindən vergi orqanına təqdim edilən Arayışa nəzarət olunan xarici müəssisə haqqında aşağıdakı sənədlər əlavə edilir:

3.2.2. hesabat dövrü üzrə nəzarət olunan xarici müəssisənin kənar auditor rəyi ilə təsdiq edilmiş maliyyə hesabatları;

*Bu maddə redaktə xarakteri daşıyır.*

## 5. Maliyyə hesabatının təqdim edilməsi qaydası

- 5.1. Siyasi partiyanın illik maliyyə hesabatı "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun əldə edilmiş auditor rəyi ilə birlikdə hər il aprelin 1-dən gec olmayaraq, Mərkəzi Seçki Komissiyasına təqdim edilməlidir. Maliyyə hesabatı siyasi partiyanın rəhbəri (siyasi partiyanın sədri, siyasi partiyada sədr vəzifəsi olmadığı halda, partiyanın qurultayarası kollegial idarəetmə orqanının rəhbəri) və baş mühasibi tərəfindən imzalanır və siyasi partiyanın möhürü ilə təsdiq edilir.
- 5.3. Siyasi partiya illik maliyyə hesabatını auditor rəyi ilə birlikdə mediada dərc etdirir. Mərkəzi Seçki Komissiyası siyasi partiyanın illik maliyyə hesabatını özünün rəsmi internet səhifəsində yerləşdirir.

- *Bu maddə redaktə xarakteri daşıyır.*

# “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu



- “13-1.2.5-1. qeyri-rezident hüquqi şəxsin nizamnaməsinin, filialın yaradılması barədə səlahiyyətli idarəetmə orqanının qərarının, qeyri-rezident hüquqi şəxsin ən azı son üç maliyyə ili (hüquqi şəxs üç ildən az müddətdə yaradıldıqda isə son maliyyə illəri və ya ili) üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatının və auditor rəyinin qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış surəti;”;
- 1.6.6. 13-1.2.7-ci maddə aşağıdakı redaksiyada verilsin:
- 1.6.7. aşağıdakı məzmunda 13-1.2.7-1-ci, 13-1.2.7-2-ci, 13-1.2.8-1 – 13-1.2.8-4-cü, 13-1.5-13-1.7-ci maddələr əlavə edilsin:
- “13-1.2.7-1. təsisçi hüquqi şəxs olduqda – onun adını, ünvanını, kommersiya fəaliyyətinin növünü, azı son üç maliyyə ilini (hüquqi şəxs üç ildən az müddətdə yaradıldıqda isə son maliyyə illəri və ya ili) əhatə edən və auditor yoxlamasından keçmiş maliyyə hesabatlarını və auditor rəyini göstərən məlumat və sənədlər, habelə həmin şəxsin nəzərdə tutulan iştirak payının əldə edilməsi barədə səlahiyyətli idarəetmə orqanının qərarının surəti, təsisçi xarici hüquqi şəxs olduqda isə əlavə olaraq qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış, onların yerləşdiyi ölkədə qeydiyyatdan keçdiyini təsdiq edən sənəd, nizamnamə (əsasnamə), ən azı son üç maliyyə ili (hüquqi şəxs üç ildən az müddətdə yaradıldıqda isə son maliyyə illəri və ya ili) üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatı və auditor rəyi;
- 13-1.2.7-2. təsisçi fiziki şəxs olduqda – onun soyadını, adını, atasının adını və vətəndaşlığını, şəxsiyyətini təsdiq edən sənədin məlumatlarını, daimi yaşayış yerini, məşğuliyyət növünü göstərən məlumat və sənədlər, təsisçi əcnəbi olduqda (daimi yaşayış yeri Azərbaycan Respublikasının ərazisi olan əcnəbilər istisna olmaqla) isə əlavə olaraq rezidenti olduğu ölkənin bir və ya bir neçə maliyyə təşkilatlarının müsbət tövsiyələri və/və ya bank hesablarından çıxarışlar;”;
- 13-13.2.1.1. hüquqi şəxsin adı, ünvanı, kommersiya fəaliyyətinin növü haqqında məlumatlar, azı son üç maliyyə ilini (hüquqi şəxs üç ildən az müddətdə yaradıldıqda isə son maliyyə illərini və ya ilini) əhatə edən və auditor yoxlamasından keçmiş maliyyə hesabatları və auditor rəyləri, habelə həmin şəxsin nəzərdə tutulan iştirak payının əldə edilməsinə icazə verən səlahiyyətli idarəetmə orqanının qərarının təsdiqlənmiş surəti;
- 13-13.2.1.3. xarici hüquqi şəxslər tərəfindən yuxarıda göstərilən sənədlərdən başqa qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış nizamnamə (əsasnamə), onun yerləşdiyi ölkədə qeydiyyatdan keçdiyini təsdiqləyən sənəd, ən azı sonuncu üç maliyyə ili (hüquqi şəxs üç ildən az müddətdə yaradıldıqda isə son maliyyə illəri və ya ili) üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatı və auditor rəyi;

Bakı şəhəri, 6 iyul 2023-cü il № 945-VIQD

# “Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

**1.3.3. 7.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7.1.4-cü və 7.1.5-ci maddələr əlavə edilsin:**

**7.1.5. kredit bürosunun fəaliyyəti ilə bağlı istənilən sənədləri, məlumatları, o cümlədən daxili reqlamentləri (əsasnamə, qaydalar, prosedurlar və s.) əldə etmək və onlara dair kredit bürosunun rəhbər işçiləri, həmçinin əməkdaşlarından, habelə kredit bürosunda audit yoxlaması həyata keçirən və ya həyata keçirmiş auditorlardan məlumat almaq.”;**

**Bakı şəhəri, 6 iyul 2023-cü il. № 944-VIQD**

*Bu maddə Mərkəzi Bankın yazılı sorğusuna əsasən auditorlar tərəfindən banklarda aparmış olduğu auditlərlə bağlı istənilən sənəd və sorğuları Mərkəzi Banka təqdim etmə öhdəliyi yaradır.*

AZƏRBAYCAN KREDİT BÜROSU

# “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

- “22.1. Sığortaçıda mühüm iştirak payına və ya əhəmiyyətli nəzarətə malik olmaq istəyən şəxs Mərkəzi Bankdan razılıq almaq üçün bu Qanunun 19-cu maddəsinin tələblərinə uyğunluğunu təsdiq edən sənədləri, həmçinin aşağıdakı sənədləri əlavə etməklə Mərkəzi Banka yazılı müraciət etməlidir:
- 22.1.2. mühüm iştirak payını və ya əhəmiyyətli nəzarəti əldə etmək istəyən hüquqi şəxs olduqda dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin və nizamnaməsinin notariat qaydasında və ya “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilmiş surəti, son üç maliyyə ili üzrə, üç ildən az müddətdə fəaliyyət göstərdikdə isə bütün fəaliyyət dövrü üzrə müstəqil auditor tərəfindən təsdiq edilmiş maliyyə hesabatları və müstəqil auditorun rəyini əks etdirən müvafiq sənədlər, mühüm iştirak payının və ya əhəmiyyətli nəzarətin əldə edilməsinə yönəldilən vəsaitin mənbəyi haqqında sənəd və məlumatlar, xarici hüquqi şəxsə münasibətdə isə həmçinin icra orqanının rəhbər işçilərinin rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onların cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş arayış.”;

1.36.7. 78.7-ci və 78.8-ci maddələr aşağıdakı redaksiyada verilsin:

- “78.7. Sığorta sektorunda nəzarət funksiyalarının həyata keçirilməsi üçün tələb olunduqda sığortaçı, onun əhəmiyyətli nəzarəti həyata keçirdiyi şəxslər və aidiyyəti şəxsləri, habelə sığortaçının auditini aparan və ya aparmış şəxslər sığorta sirri də daxil olmaqla sığortaçının fəaliyyətinə dair istənilən sənəd və məlumatları Mərkəzi Bankın yazılı sorğusuna əsasən həmin sorğuda müəyyən edilmiş müddətdə ona təqdim etməlidirlər.
- 78.8. Sığortaçı maliyyə ilinin bitməsindən ən geci üç ay müddətində müstəqil auditor tərəfindən yoxlanılmış illik maliyyə hesabatlarını, ən geci altı ay müddətində isə müstəqil auditor tərəfindən yoxlanılmış birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə Mərkəzi Banka təqdim etməli, özünün rəsmi internet səhifəsində dərc etdirməli və bu barədə məlumatı Mərkəzi Banka təqdim etməlidir. İllik maliyyə hesabatları çap mediasında da dərc etdirilə bilər.”;

Bakı şəhəri, 6 iyul 2023-cü il№ 948-VIQD

- *Bu maddə redaktə xarakteri daşıyır.*

# “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

2. Aşağıdakı məzmunda 12.3-2-ci maddə əlavə edilsin:
“12.3-2. Bu Qanunun 12.3.1-ci maddəsinin tələbi kredit təşkilatları, sığortaçılar, təkrarsığortaçılar, investisiya fondları və bu fondların idarəçiləri, habelə qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərə tətbiq edilmir. Həmin şəxslər illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə özlərinin rəsmi internet səhifəsində dərc etdirməlidirlər.”.

Bakı şəhəri, 6 iyul 2023-cü il №955-VIQD

*Bu maddə redaktə xarakteri daşıyır.*

# “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

- 1.6.6. 6.3.6-cı maddə aşağıdakı redaksiyada verilsin:
- “6.3.6. istiqrazların buraxılışı zamanı emitentin başa çatmış son üç maliyyə ili (üç ildən az müddətdə yaradıldıqda isə son maliyyə illəri və ya ili) üzrə audit yoxlamasından keçmiş (mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla) maliyyə hesabatları, emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə həmin dövrü əhatə edən maliyyə hesabatları.”;

- 1.48.6. aşağıdakı məzmunda 83.2 – 83.4-cü maddələr əlavə edilsin:
- “83.2. bu Qanunun 11-ci fəsli investisiya xidmətlərini (əməliyyatlarını) həyata keçirən banklara da şamil edilir.
- 83.3. Qiymətli kağızlar bazarında nəzarətin həyata keçirilməsi üçün tələb olunduqda lisenziyalaşdırılan şəxslər və mərkəzi depozitar, habelə lisenziyalaşdırılan şəxslərin auditini aparan və ya aparmış auditorlar həmin şəxslərin fəaliyyətinə dair istənilən sənəd və məlumatları Mərkəzi Bankın yazılı sorğusuna əsasən həmin sorğuda müəyyən edilmiş müddətdə ona təqdim etməlidir.

Bakı şəhəri, 6 iyul 2023-cü il № 947-VIQD

*Bu maddə Mərkəzi Bankın yazılı sorğusuna əsasən auditorlar tərəfindən banklarda aparmış olduğu auditlərlə bağlı istənilən sənəd və sorğuları Mərkəzi Banka təqdim etmə öhdəliyi yaradır.*

# DİQQƏTİNİZ ÜÇÜN TƏŞƏKKÜR EDİRƏM!